# Azərbaycan dostluğa, səmimi münasibətlərə önəm verir

***Rəsmi Bakının xarici siyasətinin bir istiqaməti də Qərblə, həmçinin Asiya regionu ilə münasibətlərin uğurlu inkişafına töhfə verməyə xidmət edir. Hazırda Azərbaycanın Çin, Rusiya, Pakistan, Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin möhkəmlənməsi həyata keçirilən çoxvektorlu xarici siyasətin praktik və mühüm uğurlarıdır. Bunların sırasında Çinlə münasibətlərin xüsusi yeri olduğunu qeyd etmək lazımdır.***



## *Strateji tərəfdaşlıq yüksək səviyyəli qarşılıqlı etimad, əməkdaşlıq deməkdir*

"Bildiyiniz kimi, ötən il Çin və Azərbaycan rəsmi olaraq strateji tərəfdaş oldular. Ötən yay mənim Çin Sədri ilə görüşümdən sonra strateji tərəfdaşlıq üzrə müvafiq Bəyannamə qəbul edildi və bu, bizim ikitərəfli əlaqələrdə çox mühüm siyasi addımdır". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində bildirib. Dövlət başçısı vurğulayıb ki, strateji tərəfdaşlıq yüksək səviyyəli qarşılıqlı etimad, əməkdaşlıq deməkdir və biz təkcə Ümumdünya Ticarət Təşkilatına deyil, müxtəlif beynəlxalq təşkilatlara qoşulma məsələsi daxil olmaqla Çin ilə tərəfdaşlığımızın genişləndirilməsini arzulayırıq.

Şanxay Əməkdaşlıq Təşkilatında ölkəmizin statusu dialoq üzrə tərəfdaşdır. Bu, həmin beynəlxalq təşkilatla daha yaxın olmaq üçün güclü qarşılıqlı iradənin nümayişidir. Ölkə başçısının qeyd etdiyi kimi, Şanxay Əməkdaşlıq Təşkilatının və BRICS-in bütün üzv dövlətlərinin Azərbaycanla çox yaxşı və dost münasibətləri var. Bundan başqa, bizim coğrafi mövqeyimiz, Cənubi Qafqaz və Xəzər regionunda vahid məqsədlərə töhfəmiz nöqteyi-nəzərindən əhəmiyyətli olacaq: "Əlbəttə ki, Çin və Mərkəzi Asiya ölkələri ilə üzərində fəal iş apardığımız məsələlər, həmçinin bağlılıq layihələridir. Çünki Azərbaycan artıq müasir nəqliyyat infrastrukturu ilə Şərqdən Qərbə gedən yol üzərində yerləşir. Beləliklə, biz praktiki nəticələr nöqteyi-nəzərindən çoxlu töhfə verə bilərik".

**(davamı 11-ci səhifədə)**




HADİSƏLƏR KONTEKSTİNDƏ



# Azərbaycan dostluğa, səmimi münasibətlərə önəm verir

## *Strateji tərəfdaşlıq yüksək səviyyəli qarşılıqlı etimad, əməkdaşlıq deməkdir*

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan dünyanın ən böyük iqtisadiyyata malik olan, Çinlə Avropa arasında əlaqənin qurulması kimi vacib layihədə başlıca rollardan birini oynayır. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi-Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən keçməklə Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrut sayılır. Dövlət başçısının təşəbbüsləri ilə son illər həyata keçirilən irimiqyaslı infrastruktur layihələri sayəsində Azərbaycan mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzidir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə mühüm töhfələr verən Azərbaycanın rolu getdikcə artmaqdadır. Azərbaycan dünyanın əsas yük axını istiqaməti olan Çin-Avropa-Çin arasında mühüm körpüdür.



Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyət Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın vacib sahəsini təşkil edir. Coğrafi mövqeyi və nəqliyyat infrastrukturuna qoyulmuş böyük sərmayələr Azərbaycana Avrasiyanın nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verib. Bu prosesin effektiv gedişində rəsmi Bakının ŞƏT ilə ötən illər ərzində qurduğu əlaqələrin də xüsusi əhəmiyyəti var. Belə ki, 2015-ci ildə quruma üzv dövlətlərin iclasında Azərbaycana tərəfdaş statusunun verilməsi ilə bağlı qərarın qəbulu, eləcə də 2016-cı ildə Pekində ölkəmizə təşkilatın dialoq üzrə tərəfdaş statusunun verilməsi haqqında memorandumun imzalanması qarşılıqlı münasibətlərin dərinləşməsində mühüm mərhələ oldu. Artıq rəsmi Bakı ilə ŞƏT arasında qlobal nəqliyyat marşrutları ilə bağlı intensiv dialoq həyata keçirilir. Orta Dəhlizin işlək mexanizmə çevrilməsi üçün praktik addımlar atılır.

Ötən il Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşü üzv ölkələrin iqtisadiyyatının inkişafı, təhlükəsizliyin təmin edilməsi, qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, vacib problemlərin həlli, birgə fəaliyyətin tənzimlənməsi baxımından böyük əhəmiyyətə malikdir. Cənab İlham Əliyevin Zirvə görüşü çərçivəsində Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Çin Xalq Respublikasının sədri Si Cinpin ilə görüşləri əlbəttə ki, ölkəmizin gələcək inkişafı və təhlükəsizliyi, yeni dövr hədəfləri və xarici siyasətinin prioritetlərini təqdim etmək baxımından əhəmiyyətli oldu.

Prezident İlham Əliyev ilə Çin lideri Si Cinpin arasında qarşılıqlı inam və etimada əsaslanan yüksək səviyyəli dostluq münasibətləri yaranıb. 2019-cu ilin aprelində Si Cinpinin dəvəti ilə Prezident İlham Əliyev İkinci "Kəmər və Yol Forumu"nda iştirak edib, 15 sentyabr 2022-ci ildə isə Səmərqənd şəhərində ŞƏT Sammiti çərçivəsində iki ölkənin dövlət başçıları arasında görüş keçirilib.

Çin Xalq Respublikasının Sədri Si Cinpin vurğulayıb ki, ölkələrimiz yaxşı dostlardır, bərabərlik və qarşılıqlı faydaya əsaslanan yaxşı tərəfdaşlardır. Çin-Azərbaycan münasibətləri həmişə sağlam və sabit şəkildə inkişaf edib. İki ölkə arasında əməkdaşlıq səmərəli nəticələr verib. Azərbaycan hər zaman vahid Çin siyasətini dəstəkləyir. Çinin də ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstəyi Bakı-Pekin əməkdaşlığının səmimi notlar üzərində qurulduğunu göstərir. İki dövlət ekstremizim və speratizmə qarşı mübarizədə də vahid mövqedən çıxış edir. Rəsmi Bakı multilateralizm, yəni çoxtərəfli diplomatiyaya böyük əhəmiyyət verir və digər ölkələrin daxili işlərinə qarışmamaq prinsipini əsas götürür. Elə ona görədir ki, ŞƏT-də Çin Azərbaycanın statusunun artırılmasına dəstəyini ifadə edir. Bakı-Pekin birgə Bəyannaməsinə gəldikdə isə bu sənəd Azərbaycan və Asiya arasında münasibətləri rəsmən strateji tərəfdaşlıq səviyyəsinə qaldırır.

Hazırda Azərbaycan-Çin əməkdaşlığının bir neçə prioritet istiqaməti var. Belə ki, ölkələrimiz arasında əmtəə dövriyyəsi 3 milyard dollara çatır. Çinin altı şəhərində Azərbaycan Ticarət Evi açılıb. Bununla da Çin bazarında Azərbaycan məhsulları aktiv şəkildə təşviq olunur. Çin Azərbaycana ixracın həcmini artırmaq istiqamətində real və praktik addımlar atır. İki dövlət COVID-19 pandemiyasına qarşı mübarizədə də səmimi əməkdaşlıq təcrübəsinə malikdir və bu gün ölkələrimiz arasında investisiya perspektivləri kifayət qədər aydın görünür. Çin Azərbaycanla əlaqələrə xüsusi maraq göstərən dövlətlərdən biridir və onun ölkəmizə, Xəzər hövzəsinə marağı təbii qarşılanır. Çünki son illər ərzində sürətlə inkişaf edən Çin üçün xammal və enerji mənbələri xüsusi əhəmiyyət daşıyır. Zəngin karbohidrogen ehtiyatlarına malik olan, eyni zamanda strateji nəqliyyat-tranzit qovşağına çevrilən Azərbaycanla əlaqələrin daha da genişləndirilməsi rəsmi Pekinin xüsusi maraq dairəsindədir. Ölkəmiz enerji sahəsində Çin şirkətləri ilə "yaşıl enerji" layihələri və "yaşıl texnologiyalar" üzrə əməkdaşlıqda yeni inkişaf mərhələsinə daxil olub. Bu xüsusda, 230 meqavat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının inşasında və 2025-ci ildə Mingəçevir şəhərində fəaliyyətə başlayacaq müstəqillik dövrünün ən böyük - 1280 meqavat gücündəki İstilik Elektrik Stansiyasının tikintisində Çinin "Dongfang" şirkətinin iştirakını qeyd etmək lazımdır. Elektromobil və elektrobusların tanınmış istehsalçısı Çinin BYD şirkətinin Azərbaycanın strateji tərəfdaşı seçilməsi sözügedən əməkdaşlığın konkret ifadəsidir.

Qarşılıqlı ticarət və sərmayələrin artımı, sənaye əməkdaşlığı, maşınqayırma, avtomobil sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, xüsusən də pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində çoxsaylı layihələr, mehmanxana işi və turizm, nəqliyyat və logistika istiqamətində reallaşdırılan layihələr və ya atılan ilkin addımlar ölkəmizin Çinlə, o cümlədən Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlığının inkişaf etdiyini bir daha sübut edir. Ölkələrimizin nəqliyyat potensialını artırmaq məqsədilə Mərkəzi Asiyanın tranziti haqqında sazişlərin hazırlanması, Çin, Cənubi Asiya və Yaxın Şərq ölkələrinə, Avropa İttifaqına çıxış üçün səmərəli nəqliyyat dəhlizlərinin konkret mexanizmlərinin sərfəli keçid tarifləri tətbiq edilməklə yaradılması, xidmətlərin liberallaşdırılması üzrə Tədbirlər Planının tərtib edilməsi mühüm önəm kəsb edir. Azərbaycanın sürətlə artmaqda və möhkəmlənməkdə olan beynəlxalq nüfuzu, etibarlı tərəfdaş imici, coğrafi cəhətdən yerləşdiyi geosiyasi və strateji mövqeyi ona tranzit ölkə kimi artan marağı və gələcək inkişaf perspektivlərini ortaya çıxarır.




Ümumilikdə Azərbaycanın Şimal-Cənub və Qərb-Şərq nəqliyyat dəhlizlərinin inkişafı ilə bağlı atdığı bu addımları beynəlxalq tərəfdaşlar məmnunluqla qarşılayırlar. Bakı-Tbilisi-Qars dəmir yolunun illik ötürücülük qabiliyyəti 1 milyon tondan 5 milyon tona qədər artıb. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona qədər artırmaq nəzərdə tutulur. "Şimal-Cənub" dəhlizinin Azərbaycan seqmentinin dəmir yolu və avtomobil infrastrukturu hazırdır və uğurla fəaliyyət göstərir. Hazırda dəmir yolu daşımalarının həcminin 15 milyon tona qədər artırılması üzərində iş gedir. Zərurət yaranarsa, bu rəqəm 30 milyon tona çatdırılacaq.

ŞƏT Azərbaycanın haqlı mövqeyinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından da vacib platformadır. Prezident İlham Əliyevin zirvə görüşlərində iştirakı və etdiyi çıxışlarda postmüharibə reallıqları, Cənubi Qafqazda sülhün təmini üzrə Azərbaycanın prioritetlərinin qlobal təqdimatının ən səmərəli üsullarından biri sayılır. Azərbaycan multilateralizmi dəstəkləyir. 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurlu sədrlik Hərəkatın qlobal arenada nüfuzu və gücünü artıran əsas şərtlərdəndir. Bakı qurumun institusional inkişafına da töhfə verib. Üzv dövlətlərin dəstəyi ilə Hərəkatın Parlament Şəbəkəsi, Gənclər Təşkilatı təsis edilib. Habelə qadın platformasının əsası qoyulub. Azərbaycanın bəzi qlobal platformalarda həyata keçirdiyi uğurlu fəaliyyət ŞƏT ilə də konstruktiv təmaslar üçün yol xəritəsi sayılır.

Azərbaycanın təşkilatın hər bir üzv ölkəsi ilə həm ikitərəfli, həm də regional çərçivədə qurduğu əlaqələr, humanitar təmaslar qarşıya qoyulan vəzifələrin icrasında əhəmiyyətli rol oynayır. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ŞƏT Pekindəki mənzil-qərargahında 2018-ci ildə Azərbaycan Mədəniyyət Günü, 2021-ci ildə isə Nizami Gəncəvinin 880 illik yubileyi qeyd edilib və qərargahda Nizami Gəncəvinin büstü qoyulub. Bakı ŞƏT-ə üzv olan hər bir ölkə ilə çoxvektorlu əlaqələr də yarada bilib. Bir sözlə, əməkdaşlıq bütün istiqamətlərdə inkişaf edir. 200 dövlətin dəstəyi ilə qlobal iqlim sammitinə ev sahibliyi etmək hüququ qazanan Azərbaycan ötən ilin noyabrında Bakıda keçirilən COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylər göstərdi. Bu missiyanın uğurla yerinə yetirilməsi isə beynəlxalq humanitar hüquqa ən böyük töhfə olacaq. Bütün bunlar belə deməyə əsas verir ki, Prezident İlham Əliyevin Çin lideri Si Cinpin ilə görüşünün nəticəsi olaraq ölkələrimiz arasında əməkdaşlıq daha da dərinləşəcək, qarşılıqlı təmaslar və dialoq intensivləşəcək, ikitərəfli münasibətlər yeni məzmun və keyfiyyət qazanacaq.

**Mustafa KAMAL,**
**"Respublika".**